"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".

Heydər ƏLİYEV



AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 6 avqust 2014-cü il | № 59 (1876) | Qiyməti 25 qəpik

# Azərbaycan Respublikası Prezidentinin mətbuat xidmətinin məlumatı

***Avqustun 3-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***

Türkiyənin Baş naziri son günlər cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin mövqelərimizə hücumlarının qarşısını alarkən Azərbaycan hərbi qulluqçularının həlak olması xəbərindən dərindən kədərləndiyini bildirib və bununla əlaqədar öz adından və Türkiyə xalqı adından Azərbaycan Respublikasının Prezidentinə, xalqımıza və şəhidlərin ailələrinə başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına və göstərilən diqqətə görə öz adından və Azərbaycan xalqı adından Türkiyənin Baş nazirinə və Türkiyə xalqına minnətdarlığını bildirib.

Söhbət zamanı Prezident İlham Əliyev Baş nazir Rəcəb Tayyib Ərdoğanı son günlər təmas xəttindəki vəziyyətlə bağlı məlumatlandırıb.

# Müdafiə naziri Silahlı Qüvvələrimizə dəstək olanlara təşəkkür etdi

Son günlər Müdafiə Nazirliyinin ünvanına keçmiş döyüşçülər, müharibə veteranları, o cümlədən, cəbhəyanı bölgələrdə yaşayan sakinlərdən düşməni məhv edərək torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Silahlı Qüvvələrimizin şəxsi heyətinə dəstək olduqlarını ifadə edən çoxsaylı müraciətlər daxil olur.

Vətəndaşlarımızın bu cür çağırışları şəxsi heyət üçün mənəvi dayaq, orduda gələcəkdə xidmət edəcək gənclər üçün əvəzolunmaz nümunə və Vətən üçün böyük bir şərəfdir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin şəxsi heyəti vətənpərvərlik çağırışları ilə zəngin bu müraciətlərin şəxsi heyətin döyüş ruhunun, qələbə əzminin və mənəvi-psixoloji hazırlığının artırılmasına müsbət təsir göstərdiyini bildirir və bu təşəbbüsü minnətdarlıqla qarşılayır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# ABŞ Dövlət Departamenti qoşunların təmas xəttində vəziyyət barədə bəyanatla çıxış edib

***ABŞ Dövlət Departamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zonasında qoşunların təmas xəttində yaranmış vəziyyətlə əlaqədar bəyanatla çıxış edib.***

Dövlət Departamentinin mətbuat katibinin müavini Mari Harf deyib: "İyulun 31-də qoşunların təmas xəttində zorakılığın genişlənməsi nəticəsində xeyli insan tələfatı baş verməsi ABŞ-ı narahat edib. Biz həlak olanların və yaralananların ailələrinə başsağlığı verir, tərəfləri gərginliyin azaldılması üçün təcili tədbirlər görməyə və atəşkəs rejiminə hörmət etməyə çağırırıq. Münaqişənin hərbi yolla həlli istisna edilməlidir. Qisasçılıq aktları və zorakılığın davam etdirilməsi münaqişənin dinc yolla tənzimlənməsini yalnız mürəkkəbləşdirər".

Dövlət Departamentinin nümayəndəsi qeyd edib ki, ABŞ Ermənistan və Azərbaycan prezidentlərini mümkün qədər tezliklə görüşməyə və əsas məsələlərə dair dialoqu bərpa etməyə çağırıb. M.Harf sonda deyib: "Biz tərəfləri ATƏT-in sədrinin dəvətini qəbul etməyə və sülh müqaviləsi bağlanmasına gətirib çıxara biləcək danışıqlara başlamağa çağırırıq. Biz Minsk prosesinin tərəfdarıyıq və tənzimləmə səylərinə kömək etməyə hazırıq".

Xatırladaq ki, iyulun 31-dən avqustun 1-ə keçən gecə erməni silahlı qüvvələrinin təxribat aktından sonra yaranmış gərgin vəziyyət davam edir. Erməni silahlı qüvvələri BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrinə məhəl qoymadan, suveren Azərbaycanın ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağ regionunu hələ də işğal altında saxlayır.

**AzərTAc**

# Müdafiə naziri cəbhə bölgəsindədir





***4 avqust 2014-cü il.***

***Son günlər cəbhədəki gərginliklə əlaqədar vəziyyəti yerində qiymətləndirmək üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsinə gedib.***



Döyüş bölgəsində yerləşən hərbi hissələrə, müdafiənin ön xəttindəki bölmələrə baş çəkən Müdafiə naziri mövcud vəziyyətlə tanış olub, döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşüb.

Müdafiə naziri düşmənin kəşfiyyat-təxribat qruplarının müxtəlif istiqamətlərdə mövqelərimizə basqın etmək cəhdlərinin qarşısını almış, fərdi fədakarlıq və şücaət nümunələri göstərmiş hərbi qulluqçulara medal və qiymətli hədiyyələr təqdim edib.

Müdafiə naziri düşmən təxribatlarının qarşısının alınması məqsədilə sayıqlığın daha da artırılması, onun bütün hərəkətlərinin nəzarət altında saxlanılması və zərurət yarandıqda düşmənə layiqli cavab verməyə daim hazır olmaları barədə şəxsi heyətə tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Vüsal HƏMİDOVUNDUR**

*Cəbhə bölgəsindən reportaj*

# Vətənimizin müdafiəsi etibarlı əllərdədir

***Ötən həftə Ermənistan silahlı birləşmələrilə Azərbaycan Ordusunun bölmələri arasında mövcud olan təmas xəttində yeni insidentlərin baş verməsi bir daha göstərdi ki, müharibə hələ bitməyib. 20 ildir ki, cəbhədə atəşkəs imzalansa da, düşmən öz çirkin niyyətlərindən əl çəkmir. Zaman-zaman cəbhənin bu və ya digər istiqamətlərində onlar təkcə mövqelərimizi yox, eyni zamanda yaşayış məntəqələrimizi də atəşə tuturlar. Təbii ki, belə hallarda Azərbaycan Ordusunun bölmələri məkrli düşmənin cavabını layiqincə verir.***

Amma düşmən bəd əməllərindən daşınmaq niyyətində deyil. Son hadisələr bir daha bütün çılpaqlığı ilə göstərdi ki, biz məkrli və kəmfürsət düşmənlə üz-üzəyik. Və heç vaxt bunu unutmağa haqqımız yoxdur!

Bir neçə gün öncə, yəni, iyulun 25-də Tovuz rayonunun Əlibəyli kəndinin dinc sakinləri atəş yağışına tutuldular. Nəticədə kənd sakinləri - 17 yaşlı Fərid Məmmədov və 52 yaşlı Anya Ələkbərova yaralanmışdı. Bəli, düşmən qadına, uşağa, qocaya belə rəhm etmir. Biz bunları görə-görə gəlmişik. Göyçədə, Vedibasarda, Xocalıda düşmənin iç üzünü, xislətini görmüşük. Düşmən dəyişməyib. Bunu heç vaxt yaddan çıxarmamalıyıq.

Avqust ayının ilk günlərində yenə ermənilər təmas xəttində atəşkəsi intensiv qaydada pozdular, təxribatlar törətdilər. Onlar bu çirkin əməllərinə görə layiqli cavablarını aldılar. Ancaq təəssüflər olsun ki, bu qarşıdurmada mərdlik və igidlik nümunələri göstərən dəyərli Vətən oğullarını da itirdik. Neçə-neçə cəsur döyüşçümüz yaralandı. Ancaq bu insidentlər zamanı düşmənin itkiləri qat-qat çox oldu.

Həmin hadisələrdən dərhal sonra cəbhə bölgələrinə ezam edildik və ön xətdə döyüş növbəsi aparan Vətən oğullarının görüşünə tələsdik. Onu da qeyd edim ki, cəbhəyə yaxın bölgələrdə, müharibənin ağrı-acısını yaşayan şəhər və kəndlərimizin sakinləri ermənilərin bu hərəkətindən xüsusilə hiddətlənmişdi. Bunu hər addımda insanlarla ünsiyyətdə olarkən hiss edirdik. Hamı dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməyi, düşməni Azərbaycan torpaqlarından qovub çıxarmaq üçün birdəfəlik silaha sarılmağı təklif edirdi.

Ağdam rayonunda olarkən xəbər tutduq ki, Gəncə şəhərindən onlarla gənc cəbhə bölgəsinə üz tutub və könüllü orduya yazılmaq istəyir. Təmas xəttində düşmən təxribatları bu qeyrətli Azərbaycan oğullarını da möhkəm qəzəbləndirmişdi.

- Bu əclafları torpaqlarımızdan qovub çıxarmağın vaxtı çatıb, - bizimlə söhbətində Elçin Əliyev dedi. -Hərbi biletlərimizi də özümüzlə gətirmişik ki, bizi könüllü orduya yazsınlar. Vuruşa bilməyən mərmi, patron daşıyar. Təki düşməni torpaqlarımızdan qovub çıxaraq. Nə qədər bunların bədxahlıqlarına dözəcəyik?!

Amma vətənpərvər zabitlərimiz qəzəblənmiş gənclərimizi sakitləşdirməyə çalışırdılar.

- Siz Vətən, torpaq uğrunda vuruşmaq niyyətilə buraya gəldiyinizə görə çox sağ olun, - zabit Kamran Nəsibov bildirdi. - Bu gün daha 90-cı illər deyil. Bu gün güclü Azərbaycan Ordusu var və istənilən anda Ali Baş Komandanın əmri ilə erməniləri İrəvana qədər qovmağa hazırdır!

Yeri gəlmişkən, son hadisələrlə əlaqədar internetdə beynəlxalq ekspertlərin rəyləriIə tanış olarkən Azərbaycan Ordusuna verilən qiymət qürur doğurmaya bilməz. Gürcüstandan olan və regionu daha yaxşı tanıyan ekspert, Qafqaz Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Mamuka Areşidze erməni saytlarında açıq-aydın bəyan edir ki, Azərbaycan Ordusu silahlanma baxımından dünyada ən yaxşı ordulardandır!

Cəbhə bölgəsində olarkən Xocavənd rayonundan olan Sənan Quliyevin Vətən uğrunda canından keçdiyini eşitdik. Onun dəfnindən sonra rayon ictimaiyyətinin keçirdiyi mitinqə getdik. Şəhidin məzarı ətrafına xeyli insan toplaşmışdı. Mitinqdə Xocavənd rayonu İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış etdi və şəhidlərimizin qanının yerdə qalmayacağını söylədi. Sonra çıxış edən şəhidin babası Əlqəmə kişi, əmisi Məmməd Quliyev və başqaları qisas vaxtının yetişdiyini söylədilər. Bundan ötrü hamının bir olmasını, kənar təxribatlara uymamağı, Prezident İlham Əliyevin ətrafında sıx birləşməyi təklif etdilər. Əmralılar kəndinin sakini gənc Anar Bayramov isə şəhidin məzarı başında könüllü ordu sıralarına yazılmaq, Sənan Quliyevin xidmət etdiyi bölmədə xidmət etmək, düşməndən onun qisasını almaq arzusunda olduğunu söylədi.

Daha bir şəhidimiz Ağdam rayonunun Quzanlı Qəsəbəsinə gətirilmişdi. Əsgər Qaryağdı Əhmədov düşmən basqının qarşısı alınarkən şücaət göstərmiş və canından keçmişdi. Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənov Əhmədov Qaryağdı Eldar oğlunun "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilməsi barədə əmr imzalamışdı. Şəhidin yas mərasiminə gəlmiş Müdafiə Nazirliyinin zabiti İslam Gəncəliyev cəsur döyüşçü Qaryağdı Əhmədovun layiq görüldüyü dövlət mükafatını şəhidin atasına təqdim etdi, onlara səbr dilədi.

Təbii ki, cəbhə bölgəsinə gəlib səngərlərdə Vətənin keşiyində dayanmış oğullara baş çəkməmək mümkün deyildi. Ona görə düşmən basqınına məruz qalmış posta üz tutduq. Burada döyüşçülərimiz üçün yaradılmış şəraitlə tanış olduq, onların xidmətilə maraqlandıq.

(Ardı 2-ci səhifədə)

# Müdafiə naziri şəhidləri təltif edib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 3 avqust 2014-cü il tarixli əmrinə əsasən "Azərbaycan Respublikasının "Hərbi xidmətdə fərqlənməyə görə" medalı haqqında" Əsasnaməyə müvafiq olaraq, aşağıda adları göstərilən hərbi qulluqçular ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif ediliblər:

1. Gizir Almazov İsə Ziyad oğlu
2. Gizir Əliyev Pərvin Səlahəddin oğlu
3. Kiçik gizir Hüseynov Rahil Əfsər oğlu
4. Kiçik gizir Əhmədov Elçin Rasim oğlu
5. MAHHXQ əsgər Quliyev Sənan Qeyrət oğlu
6. MAHHXQ əsgər Əhmədov Qaryağdı Eldar oğlu
7. Əsgər Məmmədov Səftər Əlihüseyn oğlu
8. Əsgər Rəhimov Əli Fətulla oğlu
9. Əsgər Coşqunov Mustafa Əhmədcan oğlu
10. Əsgər Abdulov Hüseyn Etibar oğlu
11. Əsgər İbrahimov Elnur Məhiyəddin oğlu
12. Əsgər Poladov Vüqar Hidayət oğlu

Müdafiə nazirinin göstərişinə əsasən avqustun 3-də və 4-də hərbi qulluqçuların ailələrinə medalların təqdim edilməsi mərasimləri təşkil edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov bir daha şəhidlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***4 avqust 2014-cü il.***

Kədər hissi ilə bildiririk ki, həkimlərin səylərinə baxmayaraq düşmənin kəşfiyyat-təxribat qrupunun müdafiənin ön xəttində yerləşən mövqelərimizdəki postlara basqını cəhdinin qarşısını alarkən ağır yaralanmış əsgər Qarazadə Anar Vidadi oğlunun həyatını, təəssüf ki, xilas etmək mümkün olmayıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə əsgər Qarazadə Anar Vidadi oğlu ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Müdafiə naziri şəhidin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

* * *

Avqustun 5-i və 6-da İslamabad şəhərində (Pakistan) AMAN-15 təliminin ilkin planlaşdırma konfransı keçirilir.

Tədbirdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

* * *

***4 avqust 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 130 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Çinari, Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Qaralar, Koxanəbi, Hacıalı, Ağdam və Əlibəyli kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Noyemberyan rayonunun Barekamavan, Şavarşavan, Dovex, Voskevan və İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Vozaşen, Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Fərəhli, Kəmərli, Quşçuayrım, Qaymaqlı, Məzəm, Qızılhacılı və Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şuraabad, Qaraqaşlı, Şıxlar, Baş Qərvənd, Sarıcalı, Kəngərli, Cəvahirli, Nəmirli, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Tərtər rayonunun Çiləbürt, Çaylı, Qızıl Oba, Göyarx, Seysulan, Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və Göygöl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

***5 avqust 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 161 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Çinari, Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Ağdam kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Noyemberyan rayonunun Barekamavan, Dovex və Voskevan, İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Vozaşen, Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı və Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şuraabad, Şıxlar, Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Tərtər rayonunun Çiləbürt, Qızıl Oba, Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və Göygöl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Əsgərlərimizin sayıqlığı və qəhrəmanlığı sayəsində düşmənin bütün cəhdlərinin, hücumlarının qarşısı qətiyyətlə alınıb

***Xəbər verildiyi kimi, Ermənistan Respublikasının silahlı qüvvələrinin son günlər cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini pozaraq Silahlı Qüvvələrimizin mövqelərinə basqını zamanı döyüşlərdə həlak olmuş hərbi qulluqçular Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2014-cü il 3 avqust tarixli əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif ediliblər.***





Avqustun 3-də Sumqayıt, Tovuz, Qazax, Qax, Masallı, Salyan, Xaçmaz, Xocavənd və Ağdam rayonlarında medallar şəhidlərin ailələrinə, yaxınlarına təqdim olunub və başsağlığı verilib.



Tovuz rayonunun Aşağı Öysüzlü kəndində şəhid əsgər Poladov Vüqar Hidayət oğlunun valideynlərinə medalın təqdimatı ilə bağlı mərasim keçirilib. Tədbirdə çıxış edənlər son günlər cəbhə xəttində baş verən hadisələrdən, əsgərlərimizin igidliklərindən danışıblar. Bildirilib ki, bütün təxribatlara baxmayaraq əsgərlərimizin sayıqlığı və qəhrəmanlığı sayəsində düşmənin bütün cəhdlərinin, hücumlarının qarşısı qətiyyətlə alınır.

Müdafiə Nazirliyinin nümayəndəsi general-leytenant Rövşən Əkbərov medalı şəhidin atası Hidayət Poladova təqdim edib.

Hidayət Poladov mərasimdə deyib: "Oğlum ölməyib, Vətən uğrunda şəhid olub və ən yüksək zirvəyə ucalıb. Mən özüm də Vətən uğrunda şəhid olmağa hazıram".

* * *



Qazax rayonunun Cəfərli kəndində Azərbaycan Ordusunun giziri şəhid Almazov İsə Ziyad oğlunun xatirəsi ehtiramla yad olunub.

Ermənilərlə döyüşdə şəhid olan gizir İsə Almazov da ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilib.

Medalı general-leytenant Rövşən Əkbərov şəhid İsə Almazovun oğluna təqdim edib.

* * *



Qax rayonundan hərbi qulluğa çağırılmış və qəhrəmancasına həlak olmuş kiçik gizir Elçin Əhmədovun xatirəsinə həsr olunmuş mərasimdə də şəhidlərin igidliklərindən danışılıb. Bildirilib ki, şəhidlərimizin qanı heç vaxt yerdə qalmayacaq, düşmən tezliklə layiqli cəzasını alacaq.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin rəsmisi polkovnik Abakər Mirzəyev deyib ki, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti Ali Baş Komandanın rəhbərliyi altında bütün tapşırıqları yerinə yetirməyə tam hazırdır.

* * *

Daha bir tədbir Masallı rayonunda təşkil olunub.

İgid əsgər Rəhimov Əli Fətulla oğlunun doğulub boya-başa çatdığı Masallı rayonunun Köçəkli kəndində keçirilən yas mərasimində çıxış edənlər şəhidlərin ölməzliyini, Vətənin müdafiəsinin müqəddəsliyini və igidlərin əbədiyaşar olduqlarını vurğulayıblar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində işğal altında olan torpaqlarımızın tezliklə düşmən tapdağından tam azad olunacağı əminliklə qeyd edilib.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani şəhidin qardaşı Zakir Rəhimova medalı təqdim edib.

Z.Rəhimov ailəsi adından ölkə rəhbərliyinə, Müdafiə Nazirliyinə minnətdarlıq edərək Vətənin müdafiəsinin hər şeydən vacib olduğunu, qardaşının şəhidlik zirvəsinə ucalması ilə qürur duyduqlarını bildirib.

* * *

Ağdam rayonunun Quzanlı qəsəbəsində keçirilən mərasimdə Ermənistan silahlı qüvvələrinin basqını zamanı döyüşlərdə həlak olmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əhmədov Qaryağdı Eldar oğlunun igidliyindən danışılıb.

Mərasimdə şəhidlərin şücaətindən bəhs edilib, ruhlarına dualar oxunub.

Çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik İslam Gəncəliyev və "Silahlı Qüvvələrə İctimai Nəzarət" İctimai Birliyinin sədri Emin Həsənli bildiriblər ki, Ermənistan ordusunun son günlər cəbhənin müxtəlif istiqamətlərində mövqelərimizə basqını Silahlı Qüvvələrimizin hərbi qulluqçularının göstərdiyi şücaət nəticəsində qətiyyətlə dəf edilib. Düşmən bütün istiqamətlərdə itki verərək geri çəkilməyə məcbur edilib.

Şəhidin atası Eldar Əhmədov oğlunun Vətən uğrunda həlak olduğuna görə fəxr etdiyini bildirərək deyib: "Təki Vətən sağ olsun!".

Sonda şəhid Qaryağdı Əhmədovun ailəsinə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı təqdim edilib.



* * *

Sumqayıt şəhərində də torpaqlarımızın ərazi bütövlüyünün qorunması uğrunda son döyüşlərdə şəhid olmuş Abdulov Hüseyn Etibar oğlunun yas mərasimində Müdafiə Nazirliyinin və şəhər ictimaiyyətinin nümayəndələri, hərbi qulluqçular iştirak ediblər. Tədbirdə Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev çıxış edərək şəhid döyüşçülərimizin igidliklərindən, onların xatirəsinə göstərilən hörmət və ehtiramdan danışıb.

Sonra Müdafiə Nazirliyinin rəsmisi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin atası Etibar Abdulova təqdim edərək nazirliyin rəhbərliyi adından başsağlığını çatdırıb.

Şəhid döyüşçünün valideyni və yaxınları "Təki Vətən sag olsun", - deyərək göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.



* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 3 avqust 2014-cü il tarixli əmrinə əsasən, Xocavənd rayon sakini Quliyev Sənan Qeyrət oğlunun təltif edildiyi (ölümündən sonra) "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin ailə üzvlərinə təqdim olunub. Medalı şəhidin körpə qız övladının yaxasından asan Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani bu ailəyə Müdafiə Nazirliyi adından başsağlığı verərək dərin ehtiramını bildirib. Mərasimdə Xocavənd rayon İcra Hakimiyyətinin başçısı, hərbçilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Quliyev Sənan Qeyrət oğlu 1991-ci il tarixdə Xocavənd rayonunun Qaradağlı kəndində dünyaya gəlmişdi. Ermənistan silahlı birləşmələri ilə mübarizədə bu kəndin hər 10 nəfərindən biri şəhid olmuşdur. Sənanın nəslindən olanlar da bu müharibənin faciə və acılarını yaşamışlar. Onun əmisi, erkən yaşlarından ata qayğısından məhrum olmuş həyat yoldaşının atası Quliyev Gündüz Əlqəmə oğlu da şəhid olub. 17 fevral 1992-ci il tarixdə Qaradağlı kəndi düşmən tərəfindən işğal olunan zaman onun babası Əlqəmə Quliyevlə yanaşı, 100 nəfərdən çox sakin və digər yaxın qohumları ermənilər tərəfindən əsir götürülüb, yarıdan çoxu isə qəddarcasına qətlə yetirilib.

Şərəfli bir nəslin davamçısı olan Sənan da Vətən qarşısında öz borcunu ləyaqətlə verərək avqustun 1-dən 2-nə keçən gecə Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını alan zaman şəhidlik zirvəsinə yüksəlib. Allah cəmi şəhidlərimizə rəhmət eləsin. **"Təki Vətən sag olsun"**

**AzərTAc-ın materialları əsasında**

# Vətənimizin müdafiəsi etibarlı əllərdədir





**(Əvvəli 1-ci səhifədə**

Biz ön xəttə gələndə artıq gün günortadan keçmişdi, qəfildən düşmən tərəfdən atəş səsləri gəldi. Ermənilər avtomat silahlardan mövqelərimizi atəşə tutmuşdular. Sanki belə şeylərə vərdiş ediblərmiş kimi döyüşçülərimiz təmkinlərini pozmadılar.

- Avqustun 1-də gecə vaxtı düşmən bizim posta basqın etdi, - bizimlə söhbətində zabit Aqil Nuriyev bildirdi. - Döyüşçülərimiz özlərini itirmədilər, düşmənin cavabını mətinlikilə verdilər. Düşmən itki verərək geri çəkilməyə məcbur oldu. Yəqin uğursuzluqdan qəzəblənmiş ermənilər bizim mövqeləri yenə atəşə tuturlar. Amma bu, döyüşçülərimizi qorxutmur. Vətənin bizə etibar etdiyi mövqeləri bundan sonra da ayıq-sayıq müdafiə edəcəyik.

Biz dərinə salınmış sədlə postda dayanmış döyüşçülərimizin yanına gəldik, onların ovqatı ilə maraqlandıq. Bir neçə gün öncə düşmən basqınına məruz qalmış bu mövqedə əsgər və zabitlərimizin ovqatı yüksək idi.

Düşmənin hər bir hərəkətini diqqətlə müşahidə edən əsgər Novruz Həsənov Tovuz rayonundan hərbi xidmətə çağırılıb. Azərbaycanın digər bölgələrindən əsgəri borcunu vermək üçün gəlmiş oğullarla çiyin-çiyinə torpaqlarımızın keşiyində dayanıb. Novruz da silahdaşları kimi silahın xüsusiyyətlərini mükəmməl mənimsəyib.

- Atışma başlayanda mən burada müşahidə edirdim, - əsgər Həsənov deyir. - Bizim üzərimizə əvvəlcə qumbaraatandan mərmi atdılar. Mərmi brustferin qarşısına düşdü. Sonra atışma başladı. Amma biz özümüzü itirmədik, düşmənin cavabını verdik. Onlar geri çəkilməyə məcbur oldular.

Vətənin səngərində düşmənlə üzbəüz gecə-gündüz demədən döyüş növbəsi aparan başqa döyüşçülərlə də söhbət etdik. Ürəyiaçıq, səmimi, qorxmaz məmmədciklərimizin, doğrudan da, Azərbaycanın ən layiqli və ləyaqətli oğulları olduqlarını yaxından duyduq. Və əmin olduq ki, Vətənimizin müdafiəsi etibarlı əllərdədir!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Bizim müsahibə*

# "Azərbaycanın hərbi səhiyyəsi müasir tələblər səviyyəsindədir"

## Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyev "Azərbaycan Ordusu"nun suallarını cavablandırıb

***Hazırkı dövrdə ölkəmizin artan iqtisadi potensialı bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da irimiqyaslı uğurlarımıza zəmin yaradıb. Bugünkü hərbi səhiyyəmiz 10-15 il əvvəlki dövrlə müqayisədə xeyli inkişaf edib və təkmilləşib. Dövlətimizin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsi olaraq Silahlı Qüvvələrimizdə müasir tələblərə cavab verən hərbi səhiyyə sistemi formalaşıb. Ordumuzun sıralarında xidmət edən hərbi qulluqçuların sağlamlığı bu gün etibarlı əllərdədir. Gəlin görək əvvəlki dövrlə müqayisədə hərbi tibb xidmətinin təşkilində nə kimi islahatlar aparılıb, nə kimi işlər görülüb və gələcəkdə bu sahədə hansı yeniliklər gözlənilir? Bu və ya digər məsələlərə aydınlıq gətirmək məqsədilə əməkdaşımız Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyevdən müsahibə alıb. Həmin söhbəti oxucularımıza təqdim edirik.***



***- Cənab general, söz yox ki, orduda aparılan keyfiyyət dəyişiklikləri, həyata keçirilən geniş islahatlar hərbi tibb xidmətinin inkişaf etdirilməsinə də öz təsirini göstərir. Müasir dövrdə Azərbaycanın hərbi səhiyyəsi hansı uğurlara imza atıb? Ümumiyyətlə, ölkəmizdə hərbi tibb xidmətinin təşkilində nə kimi işlər görülüb və perspektivdə hansı planlar vardır?***

- Söhbətimizin əvvəlində ulu öndər, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevi xatırlatmaq yerinə düşərdi. Çünki ölkəmizin bütün sahələrində qazandığımız uğurların bazasında böyük öndərin gərgin zəhməti və uzaqgörənliyi dayanır. Əslində dahi rəhbərin bütün siyasi addımları Azərbaycanın parlaq gələcəyinə hesablanmışdı.

Ümummilli liderimiz müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə hərbi səhiyyəmizin inkişafını daim diqqət mərkəzində saxlamışdı. Bir vaxtlar dünya şöhrətli Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunan ulu öndər Vətənimizdə də məhz belə yüksək səviyyəli tibb ocağının yaradılmasını arzu etmişdi.

Bu gün fərəhlə qeyd etməliyəm ki, ümummilli liderimizin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev orduda hərbi səhiyyə sisteminin inkişaf etdirilməsinə xüsusi diqqət göstərir. Dövlət rəhbərliyi son illərdə Azərbaycanın bütün sahələrində olduğu kimi, səhiyyə sahəsinin də maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Azərbaycan Silahlı Qüvvələrinin Baş Klinik Hospitalının ötən il istifadəyə verilmiş ikinci müalicə korpusunun ən müasir tibbi-texniki avadanlıqlarla təmin edilməsi də bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Diqqətinizə çatdırmaq istərdim ki, bu korpus son elmi-texniki nailiyyətlərə əsaslanan avadanlıqlarla təchiz edilib. Burada ürək-damar cərrahiyyəsi, kardiologiya, nevrologiya, oftalmologiya və digər bölmələr fəaliyyət göstərir. Bütün bölmələrin ən müasir tibbi avadanlıq və cihazlarla təchiz edilməsi xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir.

Son vaxtlar hospitalımızın ürək-damar şöbəsində mürəkkəb ürək əməliyyatları uğurla həyata keçirilir. Burada 150-dən artıq açıq ürək əməliyyatında bu vaxta kimi heç bir itki qeydə alınmayıb.

Korpusun laboratoriya şöbəsi də dünya standartları səviyyəsindədir. Burada ən müasir tələblərə cavab verən maqnit-rezonans tomoqrafiyası, kompüter tomoqrafiyası, flüoqrafiya aparatları quraşdırılıb. Tibb ocağında mövcud olan yeni tibbi avadanlıqlar ən dəqiq diaqnozun təmin edilməsinə kömək edir. Bir sözlə, dünyanın aparıcı klinikalarında olan şərait və texniki təchizat burada mövcuddur.

Hazırda nəinki Baş Klinik Hospitalda, həmçinin səhra hospitallarında müasir səhiyyənin tələblərinə cavab verən əlverişli şərait yaradılıb. Bugünkü dövrdə ön xətdəki döyüş taborlarının hər biri sanitar maşınlarla təmin edilib ki, bu da istənilən anda döyüşçünün sağlamlığını qorumağa təminat verir.

Bu gün Müdafiə Nazirliyinin rəhbərliyi orduda hərbi tibb xidmətinin müasir səviyyədə təşkili üçün əlindən gələni əsirgəmir. Şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə hərbi səhiyyəmizin maddi-texniki təminatının möhkəmləndirilməsi istiqamətində real addımlar atılır. Cənab nazirimizin tapşırığı ilə kifayət qədər səyyar rentgen kabinetinin alınması və əlahiddə tibb taborlarında keçmiş sovet dövründən qalmış stasionar rentgen qurğularının yeniləri ilə əvəz olunması hərbi qulluqçularda bir sıra xəstəliklərin vaxtında aşkar edilməsinə imkan verir.

***- Bildiyimiz kimi, müasir dövrdə hərbi təbabət elminin inkişaf etdirilməsində də nəzərəçarpan uğurlar əldə olunub. Artıq bir çox həkimlərimiz təbabətin müxtəlif sahələri üzrə elmi araşdırmalara imza atırlar. Bu barədə bir qədər söhbət açmağınız yaxşı olardı.***

- Doğrudur, əvvəlki dövrlə müqayisədə elmi sahədə də bir sıra uğurlarımız vardır. Mən bunu ilk növbədə müasir hərbi təbabətimizin inkişafı ilə bağlamaq istərdim. Artıq bildiyiniz kimi, Azərbaycanın əsas hərbi səhiyyə müəssisəsi olan Baş Klinik Hospitalda elmi şura yaradılıb və bu qurumda müxtəlif ixtisaslar üzrə hərbi həkimlərimizin elmi araşdırmaları diqqətlə öyrənilir. Əlbəttə, hərbi təbabətdə alimlik dərəcələri olan həkimlərin çalışması bizim üçün başucalığıdır. Hazırda 3 nəfər həkim tibb elmləri doktoru, 19 həkimimiz isə tibb elmləri namizədidir.

İndiki dövrdə müasir silahların tətbiq edilməsi ilə əlaqədar ordunun şəxsi heyəti arasında rast gəlinə biləcək döyüş patologiyası hallarının tədqiq edilməsi elmi araşdırmalarımızın əsas özəyini təşkil edir. Ümumiyyətlə, hərbi qulluqçuların spesifik xəstəlik hallarından qorunması üçün aktual araşdırmaların aparılması zərurətdir və sevindirici haldır ki, gənc hərbi həkimlərimiz arasında da buna maraq böyükdür.

Vaxtaşırı aktual mövzularda elmi-praktiki konfransların keçirilməsini təşkil edirik. Artıq belə tədbirlər Silahlı Qüvvələrin Baş Klinik Hospitalında dəyərli bir ənənəyə çevrilib. Bir çox hallarda belə tədbirlərə ölkəmizdən və xaricdən nüfuzlu tibb mütəxəssisləri dəvət edilir və onlarla samballı fikir mübadiləsi aparılır.

***- Natiq müəllim, heç kimə sirr deyil ki, bütün sahələrdə qazanılan uğurların özəyində güclü kadr potensialı dayanır. Bəs hazırkı dövrdə Azərbaycanda hərbi tibb mütəxəssisləri necə hazırlanır? Bu istiqamətdə beynəlxalq əməkdaşlığa önəm verilirmi, yəni, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi öyrənilirmi?***

- Doğrudur, bütün sahələrdə problemləri daim ağıllı və səriştəli kadrlar həll edir. Hərbi səhiyyəmizin qısa zaman kəsiyində qazandığı uğurların özəyini də bacarıqlı, peşəkar kadr bazası təşkil edir. Azərbaycanın hərbi təbabətində kifayət qədər təcrübəyə malik olan vətənpərvər həkimlərimiz vardır. Yaxşı bilirsiniz, ordumuz döyüşə-döyüşə yarandığı kimi, hərbi tibb xidməti də çətin, mürəkkəb bir şəraitdə yaranıb və təşəkkül tapıb. Döyüş yolu keçmiş həkimlərimiz çox olub və əksəriyyəti də bu gün sıralarımızda xidmətini davam etdirməkdədir.

Hərbi səhiyyəmizin əsas kadr heyəti elə ölkəmizin öz təhsil bazasında hazırlanır. Məlum olduğu kimi, əsas tibb təhsili ocağı olan Azərbaycan Tibb Universitetində hərbi tibb fakültəsi yaradılıb və artıq bir neçə ildir ki, bu fakültə Baş Klinik Hospitalın bazasında fəaliyyət göstərir. Bundan əlavə hospitalımızda digər bir təhsli müəssisəsi - hərbi feldşerlər məktəbi də mövcuddur.

Əvvəlki dövrlərlə müqayisədə hərbi həkim kadrlarının məhz hospitalın bazasında hazırlanması gənc həkimlərin peşəkarlıq səviyyəsinin yüksəlməsində və onlara hərbçi vərdişlərinin aşılanmasında az əhəmiyyət kəsb etmir. Kursantlarımız böyük peşə və həyat təcrübəsinə malik olan həkimlərin əhatəsində gələcəyin bacarıqlı mütəxəssisləri kimi yetişirlər.

Hərbi xidmətdə olan həkim heyətinin peşəkarlığının artırılmasına ciddi önəm veririk, bu məqsədlə vaxtaşırı təkmilləşdirmə kursları təşkil olunur. Hospital və əlahiddə tibb taborlarında çalışan müxtəlif ixtisaslı həkimlər belə kurslara cəlb edilir. Qardaş Türkiyənin dünya şöhrətli Gülhanə Hərbi Tibb Akademiyasında həkimlərimizin ixtisasartırma təlimləri keçməsi təqdirəlayiq haldır. Başqa inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən də faydalanmağa üstünlük veririk.

Əlbəttə, beynəlxalq simpozium və konfranslarda da daim təmsil olunmağa maraq göstəririk. Belə mötəbər tədbirlərdə müasir hərbi səhiyyənin aktual problemləri ətrafında dəyərli diskussiyalar, elmi araşdırmalar aparılır. Bizim həkimlərin də bu tədbirlərdə iştirak etməsi onların ixtisas baxımından daha da təkmilləşməsinə yardımçı olur.

***- Müdafiə naziri Silahlı Qüvvələr Günü ərəfəsində rəsmi dövlət agentliyi olan AzərTac-a geniş müsahibəsində ordu sıralarında hərbi xidmətə çağırılan gənclərin sağlamlıq vəziyyətinin ətraflı araşdırılmasına da münasibət bildirmişdi. Ordu rəhbərliyi bu gün tövsiyə və tələb edir ki, orduda xidmət edən əsgər sağlam olmalıdır. Bir qədər bu mövzunu cavablandırmağınızı xahiş edirəm.***

- Hörmətli nazirimiz general-polkovnik Zakir Həsənovun, doğrudan da, bu gün hərbi həkim kontingenti qarşısında əsas tövsiyə və tələbi ondan ibarətdir ki, sırada dayanan hərbi qulluqçu sağlam olmalıdır. Birmənalı münasibətdir, əgər hərbi çağırışçıda patologiya aşkar edilibsə, ona orduya tam yararlılığı sübut edilənə qədər hərbi xidmətdən möhlət hüququ verilməlidir. Bu məqsədlə ordu birliklərində gənc əsgərlərin təkrar tibbi müayinədən keçirilməsi tərəfimizdən təmin edilir. Hər bir əsgər müasir flüoqrafiya aparatından, bundan əlavə elektrokardioqrafiya və ultrasəs müayinəsindən keçir. Terapevt, cərrah, psixo-nevroloq, stomatoloq, laborant, rentgenoloq və s. ixtisaslar üzrə həkim heyəti gənc əsgərin hərbi xidmətə yararlığına əmin olduqdan sonra həmin əsgər ordumuzda hərbi xidmətə qəbul edilir. Buradan da əsas məqsəd nazirimizin qeyd etdiyi kimi, yalnız sağlam gənclərimizin Azərbaycan Ordusunda xidmətini təmin etməkdir. Bildiyiniz kimi, Azərbaycan müharibə şəraitindədir və düşmənlə təmas xəttində yerləşən hərbi bölmələrin şəxsi heyəti ağır coğrafi iqlim şəraitində döyüş tapşırıqlarını icra edir. Məhz belə şərait yalnız sağlam və mənəvi-psixoloji baxımdan hazırlıqlı əsgərlərin hərbi xidmətə cəlb edilməsini sövq edir.

Xüsusilə vurğulamaq istəyirəm ki, Müdafiə nazirinin göstərişinə əsasən, hərbi xidmətə çağırılanların dərinləşdirilmiş müayinəyə cəlb olunması və hərbi xidmətə yararsız olan 205 nəfər çağırışçının geri qaytarılması nəticəsində, çağırışçıların ilkin tibbi müayinəsində yol verilmiş səhvlərə görə tərxis olunanların sayı cari ilin 6 ayında 38 faizə qədər azalmışdır. Hazırda gənc əsgərlərin arasında xəstələrin seçilməsi davam etdirilir.

***- Əsasən hansı xəstəlik hallarına təsadüf edilir?***

- Əlbəttə, bu xəstəliklərin dəqiq statistikasını aparmaq mümkün deyil, əsasən sosial mühitlə əlaqəli xarakterik xəstəlik faktları üzə çıxır. Son zamanlar hərbi qulluqçular arasında sinir-əsəb pozuntuları olan gənclərə rast gəlinir. Bu da cəmiyyətdə bəzi hallarda ailə münasibətlərindən yaranır. Belə gənclər mülki həyatdan tam fərqli və sərt qayda-qanun, nizam-intizam tələb edilən hərbi mühitə uyğunlaşmaqda bəzən çətinlik çəkirlər. Axı ordu mühiti yalnız möhkəm iradəli, sağlam və cəsur gənclərin məkanıdır.

***- Son vaxtlar hərbi qulluqçular arasında yarana biləcək xəstəlik hallarının statistikası göstərir ki, ötən illərlə müqayisədə rəqəmlərdə, faizlərdə azalma müşahidə olunur. Səbəbləri nədə görürsünüz?***

- Hazırkı dövrdə dövlətimizin, möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi böyük diqqət və qayğının nəticəsi olaraq hərbi hissələrimizdə şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Yeni və müasir əsgər kazarmaları, yeməkxana, camaşırxana, tibb məntəqələri tikilərək bölgələrdə hərbi qulluqçuların ixtiyarına verilir. Bununla yanaşı qeyd etmək istərdim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun birbaşa təşəbbüsü və rəhbərliyi ilə hərbi hissələrdə əsgərlərin soail-məişət şəraitinə diqqətin artırılması da hərbi qulluqçular arasında xəstələnmə hallarının xeyli dərəcədə azalmasına gətirib çıxarıb. Müdafiə nazirinin göstərişi ilə alınan səyyar tibbi laboratoriyalar artıq qoşunların təmas xəttində yerləşdirilib, müntəzəm olaraq torpağın, suyun, havanın bioloji müayinəsi aparılır. Kifayət qədər dezinfeksiya-duş avtomobilləri də hərbi hissələrə verilib. Göründüyü kimi, əsgərin bütün məişət məsələləri ordu rəhbərliyinin diqqət mərkəzindədir.

Hərbi qulluqçuların yüksək kalorili qidalarla təmin edilməsi, sanitar-epidemioloji xidmətin yüksək səviyyədə qurulması, içməli suyun əsgərlərə qablaşdırılmış formada çatdırılması və s. amillər şəxsi heyətin immunitetinin artmasına səbəb olur. Nəticədə soyuqdəymə və mədə-bağırsaq xəstəliklərinin sayında xeyli azalma qeydə alınır. Əvvəlki illərdə xəstələnmə səviyyəsi yüksək olan və ölüm halları ilə nəticələnən pnevmaniyanın səviyyəsi də kəskin azalıb. Burada ölüm hallarına təsadüf edilməməsini xüsusi qeyd etmək istərdim.

***- Natiq müəllim, ötən həftə düşmənlə təmas xəttində gərginliyin artması və erməni silahlı birləşmələrinin kəşfiyyat-diversiya qruplarının hücumlarının qarşısının alınmasında igidlik və şücaət göstərən hərbi qulluqçularımız arasında şəhid olan və yaralananlar da vardır. Bildiyimiz kimi, Müdafiə nazirinin birbaşa göstərişi ilə dərhal təcrübəli həkim heyəti sanitar helikopterlə hadisə yerinə yollanıb və yaralı döyüşçülər hospitala təxliyyə ediliblər. Onların hazırda sağlamlıq vəziyyəti necədir? Bu barədə qısa məlumat verməyinizi istərdim.***

- Azərbaycan müharibə şəraitindədir, istənilən vaxtlarda düşmən tərəfindən atəşkəs pozulur. Ötən həftə isə qarşı tərəfin kəşfiyyat-diversiya qrupları ordumuzun mövqelərinə hücum ediblər. Həmişə olduğu kimi, düşmənin növbəti təxribatının qarşısı hərbi qulluqçularımız tərəfindən qətiyyətlə alındı. Müdafiə naziri general-polkovnik cənab Zakir Həsənovun bilavasitə göstərişi ilə peşəkar həkim heyəti bölgəyə ezam olundu və yaralı döyüşçülərimizə yerindəcə zəruri tibbi yardımlar göstərildi.

Hazırda Baş Klinik Hospitalda yaralılarımız intensiv müalicə olunur və onların sağlamlıq vəziyyəti yaxşıdır. İctimaiyyəti də əmin etmək istərdim ki, döyüşçülərimizin həyatı üçün heç bir təhlükə yoxdur. Qeyd edim ki, həlak olanlar yanlız həyatla sığışmayan yaralanma alanlardır. Yerində və təxliyyə zamanı qanitirmədən heç bir itkimiz olmayıb.

Hər bir əsgər itkisi bir vətəndaş kimi məni də ağrıdır, üzüntümə səbəb olur. Torpaqlarımızın qorunması uğrunda şəhid olmuş döyüşçülərimizin ailələrinə, yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Qürur duyuram ki, düşmənin hücum cəhdinin dəf edilməsində vətənpərvər hərbçilərimiz əsl hünər və qəhrəmanlıq nümayiş etdiriblər. İnanıram ki, qələbə əzmində olan Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə istənilən vaxt torpaqlarımızı son qarışına kimi işğaldan azad edəcəkdir.

***- Cənab general, maraqlı müsahibə üçün çox sağ olun.***



**Söhbəti apardı:**
**mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədəki prezident seçkiləri ilə bağlı səsvermə başa çatıb



Türkiyənin 54 xarici ölkədəki 103 diplomatik nümayəndəliyində təşkil olunan səsvermə başa çatıb.

Türkiyə Ali Seçki Komissiyasının məlumatına görə, ölkənin gömrük-keçid məntəqələrində keçirilən səsvermə isə avqustun 10-dək davam edəcək. Şərtlərə görə, əgər seçkilər ikinci turda davam etdirilərsə, xarici ölkələrdəki səsvermə avqustun 17-dən 21-dək təkrar keçiriləcək.

Qeyd edək ki, avqustun 10-da Türkiyədə ilk dəfə olaraq ümumxalq səsverməsi yolu ilə prezident seçkiləri baş tutacaq.

### Yaponiya ilk kosmik hərbi birləşmə yaradacaq



Yaponiya ilk kosmik hərbi birləşməni 2019-cu ildə təsis etməyi nəzərdə tutur. "Kyodo" informasiya agentliyinin verdiyi məlumata görə, bu barədə bildiriş ölkənin Müdafiə Nazirliyi tərəfindən ABŞ hökumətinə təqdim edilib.

Yeni hərbi birləşmənin əsas vəzifəsinə istifadədən çıxarılmış süni peyklər, raketlər və digər kosmik tullantılara nəzarət və onların fəaliyyətdə olan uçan aparatlarla toqquşma təhlükəsi barədə xəbərdarlıq daxil olacaq. Özünümüdafiə qüvvələri əldə edilmiş məlumatları ABŞ-la kosmik sahədə əməkdaşlığı nprinsiplərinə uyğun bu ölkədəki həmkarları ilə bölüşəcək.

Bu ilin avqustunda Yaponiya Müdafiə Nazirliyinin kosmik məkandan istifadə üzrə konsepsiyanı təsdiq edəcəyi gözlənilir.

### Qəzzada atəşkəs başlanmamış pozuldu



İsrail ilə HƏMAS arasında 3 günlük atəşkəs haqqında razılaşma qüvvəyə minər-minməz bölgədə yenidən silahlar işə düşüb.

Euronews telekanalı xəbər verir ki, tərəflər razılaşmanın pozulmasında biri-birini günahlandırırlar. İsrail ordusunun rəhbərliyi iddia edir ki, Qəzza zolağında HƏMAS silahlıları tərəfindən hərbçilərə hücum təşkil olunub. Nəticədə 2 əsgər ölüb, bir zabit oğurlanıb. Atəşkəsin başlamasına bir neçə dəqiqə qalmış İsrail ərazisinə 6 raket atılıb.

İsrail tərəfi insidentin baş verdiyi rayonda hərbi əməliyyatları genişləndirib. Fələstin həkimlərinin məlumatına görə Qəzzanın cənubunda yerləşən Rəmallaha endirilən aviazərbələr nəticəsində 50-dən çox insan həlak olub, 220 nəfər yaralanıb.

### Rumıniyada güclü daşqınlar nəticəsində yüzlərlə adam evakuasiya edilib



Rumıniyanın cənub-qərb bölgəsində baş verən daşqınlar nəticəsində 2 nəfər həlak olub, bir çox kəndlərdə dağıntılar qeydə alınıb.

Bəzi yerlərdə suyun səviyyəsi 3 metrə çatır. 500-ə yaxın adam evakuasiya edilib. Rumıniya hökuməti Su Resursları Milli İnstitutunun rəhbər heyətini daşqınların gəlişi barədə vaxtında məlumat vermədikləri səbəbindən vəzifədən azad edib.

### Türkiyənin döyüş təyyarələri radarlardan yayına biləcək



Türkiyə Silahlı Qüvvələrinə məxsus "F -16" döyüş təyyarələri modernləşdiriləcək.

Ölkənin rəsmi mətbuatının yaydığı xəbərə görə, Türkiyə Elm və Texnoloji Araşdırmalar Təşkilatı tərəfindən həyata keçirilən "Hərbi elektronika layihəsi" əsasında "F-16" döyüş təyyarələrinə əlavə ediləcək yeni cihaz sayəsində onlar radarlardan yayına biləcək və müdafiə imkanlarını daha da genişləndirəcək. Bu cihazın hazırlanması və hər təyyarədə quraşdırılması təxminən 2 milyon ABŞ dollarına başa gələcək.

### Fransa vətəndaşlarına Ebola virusunun tüğyan etdiyi Qərbi Afrika ölkələrinə səyahət etməməyi məsləhət görüb



Fransanın Xarici İşlər Nazirliyi Qərbi Afrika ölkələrində 700 nəfərin həyatına son qoyan Ebola epidemiyasının tüğyan etdiyi dörd ölkəyə səyahət etməməyə çağırıb.

Nazirlik Qvineya, Sierra Leon, Liberiya və Nigeriya əhalisinin Ebola virusuna yoluxduğunu nəzərə alaraq həmin ölkələrə səyahət etməyin həyat üçün ciddi təhlükə olduğuni bildirib. Fransanın səhiyyə naziri Ebola virusunun artıq Avropaya keçdiyini bəyan edib və qeyd edib ki, bu virusun onun ölkəsinə keçmək ehtimalı çox azdır.

Xatırladaq ki, Ebola virusunun daha geniş yayıldığı Sierra Leonda fövqalədə vəziyyət elan olunub.

### Xerosimaya atom bombası atan sonuncu pilot da dünyadan köçdü




İkinci Dünya müharibəsinin sonlarına yaxın Yaponiyanın Xerosima şəhərinə atom bombasının atılmasında iştirak etmiş sonuncu pilot - Teodor Van Kirk vəfat edib. AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, "Alman" ləqəbli Kirk dünyadan 93 yaşında köçüb. Teodor Van Kirk "Enola Gay" adlı B-29 "Superfortress" tipli təyyarə ilə Yaponiyaya atom bombası atan 12 pilotdan həyatda qalan sonuncusu idi. Xatırladaq ki, 1945-ci il avqustun 6-da Xerosimaya atılmış atom bombası 130 mindən çox insanın həyatına son qoymuş, yüz minlərlə adam şikəst olmuş, şəhər xarabazara çevrilmişdi. Üç gün sonra Naqasaki şəhərinə atılan atom bombası isə 70 minədək insanın ölümü ilə nəticələnmişdi.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Qəlblərə yol tapan hərbi şöhrət bayramı

## Qusarda Azərbaycanın Milli Qəhrəmanı Fəxrəddin Musayevin xatirəsi ehtiramla yad edilib



***Bu günlərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyi Qusar rayon İcra Hakimiyyəti ilə birlikdə Azərbaycanın Milli Qəhrəmanı şəhid Fəxrəddin Musayevin xatirəsinə həsr olunmuş hərbi şöhrət bayramı tədbiri keçirtdi. Həmin gün rayonun küçə və meydanları bayraqlarla bəzədilmişdi və əsl bayram təntənəsi hiss edilirdi. Mərasim iştirakçıları əvvəlcə rayonun mərkəzində ucaldılmış ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Daha sonra tədbirin keçiriləcəyi Şövkət Orduxanov adına Qusar şəhər stadionuna gəldilər.***

"N" hərbi hissəsinin əsgərləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən mərasimdə Milli Məclisin sədr müavini Bahar Muradova, Müdafiə Nazirliyinin idarə rəisləri general-mayor Rasim Əliyev, polkovnik Rüfət Əmirov, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Respublika Veteranlar Təşkilatının, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin, Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin nümayəndələri iştirak edirdilər.

Mərasimi açıq elan edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani bildirdi ki, Azərbaycanın Milli Qəhrəmanı şəhid Fəxrəddin Musayev xalqımızın qəlbinə əbədi yol tapan tək-tək hərbçilərdəndir. O döyüş vertolyotunu idarə edib. Dəfələrlə Qarabağda gedən hərbi əməliyyatlarda səmadan düşmən mövqelərinə sərrast raket zərbələri endirib və quldurların xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib.

Bildirildi ki, baş leytenant Fəxrəddin Musayev 1992-ci il aprelin 11-də Füzuli rayonunda gedən ağır döyüşdə qəhrəmancasına həlak olub. İgid döyüşçü Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 7 iyun tarixli fərmanı ilə Fəxrəddin Musa oğlu Musayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Qusar rayonundakı mərkəzi küçələrdən biri Milli Qəhrəmanın adını daşıyır. Onun vaxtilə yaşadığı binanın önünə barelyefi vurulub.

Azərbaycanın Milli Qəhrəmanı Fəxrəddin Musayev 1957-ci il iyulun 30-da Türkmənistanda hərbçi ailəsində dünyaya göz açıb. Keçmiş sovet ordusu sıralarında Çexoslovakiya Respublikasında, daha sonra Rusiyanın Orenburq vilayətində qulluq edib. Onun valideynləri Qusar rayonunun Qican kəndindən olub.

Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov mərasimdə çıxış edərək, birinci Qarabağ savaşında yüzlərlə qusarlının könüllü döyüşlərdə iştirak etdiyini və 50-dən artıq şəhid verdiklərini bildirdi. Bu gün də rayon gənclərinin böyük həvəslə hərbi xidmətə yola düşdüyünü və əksəriyyətinin düşmənlə təmas xəttində xidmət keçdiyini söylədi. Daha sonra rayon rəhbəri dedi ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında qusarlılar da hamılıqla silaha sarılıb düşməni torpaqlarımızdan qovmağa hazırdırlar.





Milli Məclisin sədr müavini Bahar Muradova çıxış edərək dövlətimizin gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə göstərdiyi diqqət və qayğıdan, ümummilli lider Heydər Əliyevin hərbi sahənin inkişafı istiqamətində gördüyü işlərdən danışdı. Ümummilli liderin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin yüksəldilməsini və müasir silahlarla təchiz edilməsi prosesini daim diqqətdə saxladığını qeyd etdi. Azərbaycanın çox güclü ordusu olduğunu deyən Bahar xanım əlavə etdi ki, ordumuz erməni işğalı altındakı torpaqlarımızı Ali Baş Komandanın əmri ilə azad etməyə hər an hazırdır.

Milli Məclisin sədr müavini özünün də Füzuli rayonunda doğulub boya-başa çatdığını və Milli Qəhrəman Fəxrəddin Musayevin misilsiz igidlik göstərərək məhz Füzulidə şəhidlik zirvəsinə ucaldığından qürur duyduğunu bildirdi. Bahar xanım qəhrəmanın xatirəsinə həsr edilmiş hərbi şöhrət bayramının ideya müəllifi polkovnik Abdulla Qurbaniyə təşəkkür etdi.

Bədii qiraət ustası Məleykə Alıqızının söylədiyi vətənpərvərlik şeirləri mərasimdə böyük coşquya səbəb oldu. Azərbaycan Respublikası Silahlı Qüvvələri nin Mahnı və Rəqs Ansamblının solistləri Ağabala Abdullayev, Sevinc Sarımova, Elçin Məmmədov, Leyla Vahidqızı, Qoşqar Qasımov və tanınmış müğənni Nigar Rəhimovanın ifaları hər kəsi heyran qoydu. Rəqqaslardan Emil Paşayev, Şəhriyar Cəfərov, Səbinə Qasımova, Roza Rzayeva, Yelena Qrekova və Elnur Nəbiyevin təqdim etdiyi milli rəqslər qusarlıların qəlbinə yol tapdı.

Bakı Bələdiyyə Teatrının aktyoru Elxan Rzayevin ifasında Milli Qəhrəman Fəxrəddin Musayevin obrazı canlandırıldı və bu, tamaşaçıların sürəkli alqışlarına səbəb oldu. Qusarlı daha bir şəhid - mayor Telman Haqverdiyevin Murovdağda göstərdiyi qəhrəmanlığın bədii kompozisiyası polkovnik-leytenant Zöhrab İmamquliyevin təqdimatında oldu və tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.

Mərasimin sonunda qusarlı Qarabağ qazilərinə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından mükafatlar verildi. Həmçinin qusarlı əsgər valideynlərinin cəbhə bölgəsində xidmət edən övladları ilə görüşü yaddaqalan oldu.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## İdmançımız ermənini nakdaunda saldı



Gürcüstanın Ureki şəhərində kik-boksinq üzrə Evrovizya çempionatı keçirilib.

"Qafqazinfo" xəbər verir ki, yarışda ölkəmizi "Qızıl Əlcək" idman klubunun yetirməsi 15 yaşlı Allahverdiyev Ramik Rafail oğlu təmsil edib. Tanınmış əməkdar məşqçi Rəhim Allahverdiyevin və məşqçi İlqar Yusifovun yetirməsi olan Ramik Allahverdiyev onunla finala çıxmış Ermənistan təmsilçisini dəfələrlə nakdaund vəziyyətinə salaraq kuboku qazanıb.

## Şahmatçılarımız Şotlandiya və Salvador yığmalarına qalib gəliblər




Norveçin Tromse şəhərində keçirilən Şahmat Olimpiadasının ikinci raundunda Azərbaycanın kişilərdən ibarət şahmatçıları Şotlandiya komandasına qalib gəlib. AzərTAc xəbər verir ki, həmvətənlərimiz öz rəqiblərini 3,5:0,5 hesabı ilə məğlub ediblər. Bu turda ölkəmizin qadınlardan ibarət yığma komandası da uğur qazanıb: Azərbaycan komandası Salvador yığmasına 4:0 hesabı ilə qalib gəlib. Bazar ertəsi Olimpiadada üçüncü turun oyunları keçiriləcək. Bu turda ölkəmizin kişilərdən ibarət komandası Xorvatiya yığması ilə, qadınlardan ibarət yığmamız isə İsveçrə komandası ilə qarşılaşacaq.

## Azərbaycan çapарı beynəlxalq turnirdə dörd medal qazanıb



Danimarkada atçılığın konkur növü üzrə beynəlxalq turnir başa çatıb. AzərTAc xəbər verir ki, maneələrin hündürlüyü 140 santimetr olan turnirin sonuncu günündə Azərbaycan idmançısı Andre Şröder "Carvin" ləqəbli atla çıxış edib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Azərbaycan idmançısı bürünc medal qazanıb. Almaniyalı Kasandra Orşel "Acanthya" ləqəbli atla birinci, Yeni Zelandiya təmsilçisi Bruce Goodin "Çagrannus" ləqəbli atla ikinci olublar.

Qeyd edək ki, Andre Şröder yarışın əvvəlki günlərində üç qızıl medal qazanıb.

## Azərbaycan velosipedçilərinin "Panevejis-2014" turnirində uğuru



Litvanın Panevejis şəhərində "Panevejis-2014" turniri keçirilir. AzərTAc xəbər verir ki, velosiped idmanının trek növü üzrə keçirilən yarışın ikinci günündə Azərbaycan yığma komandası bir qızıl və bir gümüş medal qazanıb.

Turnirin ilk günündə kişilər arasında 200 metr məsafəyə sprint yarışında üçüncü yeri tutmaqla 64 reytinq balı əldə edən Sergey Omelçenko bu dəfə fəxri kürsünün ikinci pilləsinə qalxıb. Həlledici yürüşdə isə Sergey Omelçenko gümüş medala sahib olub. Daha sonra mübarizəyə qadın idmançılar qoşulublar. Millimizin lideri Olqa İsmayılova həm yarımfinal, həm də final yürüşündə bütün rəqiblərini qabaqlamaqla yığmamıza qızıl medal qazandırıb.

## Gənc güləşçilərimiz dünya çempionatında iştirak edəcəklər




Avqustun 5-də Xorvatiyanın Zaqreb şəhərində gənclər arasında güləş üzrə dünya çempionatı başlanıb. AzərTAc xəbər verir ki, çempionatda hər üç güləş növü üzrə Azərbaycan yığması iştirak edəcək.

Çempionatın ilk iki günündə yunan-Roma güləşçiləri mübarizə aparacaqlar. Bu mübarizədə ölkəmizi İbrahim Nurullayev (50 kq), Murad Məmmədov (55 kq), Elman Muxtarov (60 kq), Ruhin Mikayılov (66 kq), Sənan Əlimirzəyev (74 kq), İslam Abbasov (84 kq), Orxan Nuriyev (96 kq) və Əli Həsənov (120 kq) təmsil edəcəklər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Qədirov Sahil Sadiq oğluna 2010-cu ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

# Xarici hərbi xronika

## Silahlanmaya döyüş robotları qəbul ediləcək

"Döyüş texniki robotları" laboratoriyasının işçi qrupunun rəhbəri Oleq Maryanovun verdiyi məlumata görə, Rusiyanın Silahlı Qüvvələrinə döyüş robotlarının kütləvi şəkildə verilməsi 2018-ci ildən sonra həyata keçiriləcək. O bildirib ki, yaxın gələcəkdə RF SQ tankəleyhinə "Kornet" raket kompleksi ilə təchiz olunmuş "Tiqr" zirehli avtomobili texniki robotlarla təmin olunacaq. Robotların yerləşdirilməsində əsas məqsəd hərbi əməliyyatların gedişi zamanı hərbi qulluqçuların sağlamlığı və həyatı üçün təhlükənin minimal həddə çatdırılmasıdır.

## Pentaqon F-35 qırıcılarının uçuşuna icazə verib

ABŞ Müdafiə Nazirliyi 2014-cü ilin iyununda uçuşu dayandırılmış F-35 qırıcılarının yenidən uçuşuna icazə verib. Hazırda hərbçilər qırıcıların texniki vəziyyətini yoxlayırlar. Xatırladaq ki, F-35 qırıcılarının uçuşuna qadağa bu il iyunun 23-də qoyulmuşdu. Buna səbəb Floridada yerləşən Eqlin aviabazasında uçuş zamanı mühərrikin yanması olub. Hələlik isə qırıcının güc qurğusunda heç bir nöqsan aşkar edilməyib.

## Hollandiya ordusu Boxer zirehli transportyorlarını alıb

Bu yaxınlarda Oyrşotedə yerləşən Holland ordusunun motopiyada briqadasının tibb bölüyü ilk üç Boxer zirehli transportyorları bazası əsasında hazırlanmış zirehli tibb maşınlarını əldə edib.

Niderlandlılar ARTEC-200 şirkətinə 200 ədəd Boxer maşınlarının alınması üçün sifariş verib. Ən son məlumatlara görə, hollandlılara 52 ədəd zirehli tibb, 60 ədəd komanda-qərargah, 53 ədəd mühəndis, 27 ədəd zirehli yük transportyorları, 8 ədəd təlim maşınları verilməlidir. Artıq 8 ədəd təlim maşını 2013-cü ildə Holland ordusuna təqdim edilib.

## Qətər ABŞ-dan silah və hərbi texnika alıb

Qətərin Müdafiə Nazirliyi ABŞ-dan 11 milyard dollar həcmində silah və hərbi texnika alıb. Razılaşmada raket ələkeçiriciləri ilə birlikdə 10 Patrio zenit-raket kompleks batareyasının, 14 AH-64E hücum vertolyotunun və 500 tankəleyhinə "Javelin" raketinin verilməsi nəzərdə tutulub. Razılaşma 2014-cü ilin iyulun 14-də Vaşinqtonda əldə edilib.

Reutersin verdiyi məlumata görə, imzalanmış razılaşma Amerikanın hərbi ixracatında ən iri saziş idi.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

# Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının III plenumu keçirilib

***Plenum iştirakçıları əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, şəhidlərimizin və dünyasını dəyişmiş veteranların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Daha sonra təşkilatı məsələlərə baxılıb və plenumun rəyasət heyətinin tərkibi təsdiq olunub. Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev qurumun son altı ayda gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı hesabat məruzəsi ilə çıxış edib. Ümummilli lider Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi bu ənənənin hazırda Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyini bildirib. Qeyd edilib ki, hesabat dövründə təşkilatın nüfuzunun yüksəldilməsi, veteran təşkilatlarının ictimai həyatda fəallığının artırılması istiqamətində mühüm addımlar atılıb. Veteranların sosial problemlərinin həlli onların fəallığının artmasına, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində daha yaxından iştirakına müsbət təsir göstərib.

Dövlətimizin başçısının veteranlara göstərdiyi diqqətdən bəhs edən məruzəçi bildirib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu kateqoriyadan olan şəxslərə verilən müavinətlərin artırılması və avtomaşınla təmin edilməsi ilə bağlı sərəncamlar imzalayıb. Prezident İlham Əliyev Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 69-cu ildönümü günündə Böyük Vətən müharibəsi iştirakçıları ilə görüşərək onların problemləri ilə maraqlanıb. D.Rzayev bu diqqət və qayğıya görə veteranlar adından dövlətimizin başçısına minnətdarlığını bildirib.

Məruzəçi qeyd edib ki, II plenumdan ötən müddətdə Veteranlar Təşkilatı çoxsaylı tədbirlər, o cümlədən cəbhə bölgələrində və rayonlarda yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirib.

2015-ci ildə faşizm üzərində Qələbənin 70-ci ildönümünü yüksək səviyyədə qeyd etməyə hazırlaşan təşkilat Azərbaycan xalqının Böyük Vətən müharibəsində rolunun geniş təbliği, ordu və xalq arasında münasibətlərin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirməyi də nəzərdə tutur.

Plenumda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Nizamnaməsinə əlavə və dəyişikliklər edilib.

Sonra gündəlikdə duran bir sıra təşkilati məsələlərə baxılıb.

Qurumun rayon təşkilatlarının sədrləri plenumda çıxış edərək ötən müddətdə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Plenumda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Veteranlar Təşkilatının cəmiyyətimizin həyatında mühüm rol oynadığını bildirib. Vurğulanıb ki, dövlətimizin başçısı İlham Əliyev veteranların problemlərinə həmişə böyük diqqət göstərir, bununla bağlı tapşırıqlar verir. İşi lazımi səviyyədə qurmaq üçün Veteranlar Təşkilatına hər cür şərait yaradılır. Buna cavab olaraq veteranlar da öz işlərini gücləndirməli, fəaliyyətlərini Azərbaycan Prezidentinin tələbləri əsasında qurmağa çalışmalıdırlar.

Təşkilat ölkəmizin mənafelərindən irəli gələn məsələləri beynəlxalq qurumlar qarşısında vaxtaşırı qaldırmalı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, cəbhə xəttində baş verən proseslər və digər məsələlər barədə öz mövqeyini bildirməlidir.

Ərəstun Mehdiyev yerlərdə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsi məsələsində də Veteranlar Təşkilatının öz üzərinə düşən vəzifələrə yenidən baxmasının vacibliyini qeyd edib. Diqqətə çatdırılıb ki, gənclərlə mütəmadi görüşlər təşkil olunmalı, onlarla söhbətlər aparılmalıdır.

Plenumda Respublika Veteranlar Şurası adından insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinə Kəlbəcər rayonu ərazisində azərbaycanlıların girov götürülməsi ilə bağlı bəyanat qəbul olundu, həmin şəxslərin təcili azad olunması tələb edildi.

Sonda gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində, veteran hərəkatında və veteranların sosial problemlərinin həllində fəal iştirak etdiklərinə görə bir qrup şəxsə fəxri fərmanlar təqdim olundu.

**AzərTAc-ın materialları əsasında**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 257
Nüsxə 4570